## BAKI DÖVLƏT UNİVERSİTETİ HAQQINDA ÜMUMİ MƏLUMAT

Respublikada ali təhsilin bayraqdarı olan Bakı Dövlət Universiteti Azərbaycanın ilk təhsil ocağıdır.

Uzun və şərəfli yol keçən Universitet inkişaf edərək Yaxın və Orta Şərqin böyük elm və tədris mərkəzlərindən birinə çevrilmişdir. Universitetin yaradılması çox mürəkkəb siyasi və sosial-iqtisadi şəraitdə baş vermişdir. Lakin buna baxmayaraq müxtəlif qrupların və siniflərin mənafeyini müdafiə edən Azərbaycan ziyalı təbəqəsi universitetin yaradılması məsələsinə birmənalı yanaşmışdır. Bu ideyanı həyata keçirmək uğrunda mübarizə aparmış ictimai xadimlərdən M.Ə.Rəsulzadə, F.Xan Xoyski, S.Ağamalıoğlu, M.A.Şaxtaxtinski və başqalarının adını iftixarla çəkmək olar.

Zaqafqaziya Universiteti bağlandıqdan sonra Tiflisdən Bakıya köçmüş bir qrup rus ziyalısı, professor və müəllimlərdən V.İ.Razumovski, N.A.Dubrovski, L.A.İşkov, İ.S.Sitoviç, İ.İ.Şirokoqorov və başqalarının Universitetin yaradılmasında böyük xidmətləri olmuşdur.

21 may 1919-cu ildə Dövlət tərəfindən yaradılmış Universitet komissiyasının ilk iclası keçirildi.

Bir neçə həftə ərzində V.İ.Razumovskinin sədrlik etdiyi komissiya aşağıdakı sənədləri hazırlayaraq təqdim etdi:

1.Bakı şəhərində Dövlət Universitetinin yaradılması haqqında qanun layihəsinə izahat məktubu (31 may 1919-cu il, N 7);

2. Bakı şəhərində Dövlət Universitetinin yaradılması haqqında qanun layihəsi;

3. Bakı Universitetinin nizamnaməsi;

4. 1919-1920-ci illər üçün universitetin layihə smetası və ştat cədvəli.

İyulun 7-də Dövlət orqanları Qanun layihəsini müzakirə edərək təsdiq etdi.

1919-cu il sentyabrın birində «Bakı Dövlət Universitetinin yaradılması haqqında qanun» Azərbaycan Demokratik Respublikasının Parlamenti tərəfindən təsdiq olundu. Bu qanuna əsasən Universitet dörd fakültədən ibarət yaradılırdı: 1)tarix-filologiya; 2) fizika-riyaziyyat; 3)hüquq və 4) tibb fakültələri (lakin Universiteti yalnız iki fakültə ilə açmaq mümkün oldu).

1919-cu il sentyabrın 29-da «Bakı Dövlət Universitetinin Nizamnaməsi» Azərbaycan Demokratik Respublikasının Parlamenti tərəfindən təsdiq olundu.

1919-cu il noyabr ayının əvvəllərindən göstərilən sənədlərə müvafiq olaraq universitet fəaliyyətə başladı və noyabrın 15-dən dərslər sistemli şəkildə keçirildi. Məhz bu gün universitetin başlanğıcı oldu.

Bununla əlaqədar universitetin ilk rektoru, professor V.İ.Razumovski yazırdı: «Azərbaycan öz maarif ocağını yaratdı. Türk (Azərbaycan) xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya və Avropanın qovşağında yeni məşəl yandı.»

Universitet tarixində vacib mərhələlərdən biri də ilk azərbaycanlı rektor Tağı Şahbazinin adı ilə bağlıdır. Bu görkəmli dövlət xadimi, yazıçı və alim 1926-cı ildən 1929-cu ilə qədər universitetin rektoru olmuşdur.

1930-cu ildə Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə Universitet bağlandı və onun bazasında dörd institut: tibb, pedaqoji sovet quruculuğu və hüquq, ticarət-kooperativ institutları yarandı.

Lakin tezliklə aydın oldu ki, ayrı-ayrı sahələr üzrə mütəxəssislər hazırlayan institutlar universiteti əvəz edə bilməyəcək. 29 may 1934-cü ildə Azərbaycan Dövlət Universiteti yenidən bərpa edildi. Məhz bundan sonra Universitetin əsl intibah dövrü başlandı. Belə ki, Universitet bu günə qədər xalq təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışan 100 mindən artıq yüksək ixtisaslı milli kadr hazırlamışdır. Universitet tarixi bayramlarında, xüsusən 50, 60, 75 illik yubileylərində öz xidmətlərinə dair xalq qarşısında şərəflə hesabat vermişdir. Fərəhləndirici haldır ki, göstərilən təntənəli yubileylərin hamısı hörmətli prezidentimiz Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və iştirakı ilə keçirilmişdir.

Bakı Dövlət Universitetinin keçdiyi yola nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanın bu günü, onun dünya şöhrətli təhsil sistemini, elmini,mədəniyyətini, alimlərini, habelə iqtisadiyyatını, mənavi-psixoloji vəziyyətini, bir sözlə bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu ali təhsil ocağından ayrılıqda təsəvvür etmək mümkün deyildir. Universitet Azərbaycan xalqının tərəqqisində, dünya elm və təhsil sistemində layiqli yer tutmasında öz elmi fəaliyyətləri ilə xalqımızı, dövlətimizi, elm və mədəniyyətimizi bütün dünyada layiqincə təmsil edən yüzlərlə tanınmış alim, mədəniyyət, siyasət və dövlət xadimləri yetirmişdir. Universitetdə öz fədakar əməkləri ilə fərqlənən və onun şöhrətini dünyaya yayan Yusif Məmmədəliyev, Heydər Hüseynov, Murtuza Nağıyev, Aleksandr Makovelski, Əli Quliyev, Abdulla Qarayev, Mirəsədulla Mirqasımov, Zahid Xəlilov, Şəfayət Mehdiyev, Əşrəf Hüseynov, Məcid Rəsulov, Mirəli Qaşqay, İsmayıl Hüseynov və bir çox başqa alimlər çalışmışlar. Fəxr edirik ki, böyük yazıçı, şair, həmçinin elm, mədəniyyət və dövlət xadimlərindən Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Lev Landau, İlya Petruşevski, Rəsul Rza, Süleyman Rəhimov, Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli və başqaları Universitetin məzunlarıdır.

Universitetin 80 illik fəaliyyəti dövründə hazırladığı yüksək ixtisaslı mütəxəssislər respublikamızla yanaşı Rusiya Federasiyasında, ABŞ-da, İngiltərədə, Fransada, Çində, Türkiyədə, İranda, Yaponiyada, Kubada, bir çox Asiya və Afrika ölkələrində çalışır, xalqımızın, elminin, mədəniyyətinin ölkələrdə şöhrətlənməsində böyük rol oynayırlar.

Son zamanlar Universitetin xarici elmi əlaqələri xeyli genişlənmişdir. BDU-nun bir çox alimləri İranın, Türkiyənin və bir sıra başqa ölkələrin qabaqcıl elm və təhsil müəssisələrində işləməyə dəvət olunmuşlar. Universitet eyni zamanda uzun illərdən bəri xarici ölkələr üçün yüksək ixtisaslı kadr hazırlamaq işində yaxından iştirak edir. Hazırda Universitetdə 500-dən artıq xarici ölkə vətəndaşı təhsil alır.

Dunyanın bir çox qədim tarixi böyük təcrübəyə, elmi potensiala malik universitetləri ilə müqayisədə BDU çox cavan olsa da, o çox şərəfli həyat yolu keçmişdir. 1919-cu ildə yaranarkən 44 əməkdaşı olan universitetdə hazırda 1300-dən çox professor-müəllim heyəti

fəaliyyət göstərir. Bunlardan 250-yə qədəri elmlər doktoru, professor, 800-ə qədəri elmlər namizədidir. Elmi tədqiqat laboratoriyalarında 225-ə qədər elmi işçi çalışır. Vaxti ilə iki fakültədən ibarət olan BDU indi 16 fakultəni, 116 kafedranı, onlarla tədris laboratoriyasini, 2 milyondan çox kitab fondu olan zəngin kitabxananı, bir elmi-tədqiqat institutunu, geniş tədris və elmi tədqiqat kompleksini birləşdirən mürəkkəb, çoxşaxəli elm və təhsil müəssisəsidir. Hazırda universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır.

Son illər dogma Universitetimizdə aparılan geniş miqyaslı abadlıq işləri onun simasını tamamilə dəyişmiş, Universitetin maddi-texniki bazası dünyanın qabaqcıl universitetləri səviyyəsinə yüksəlmişdir.

Universitetdə aparılan təhsil islahatları yeni tədris planlarının, proqramlarının tərtibi, bakalavr və magistr kadrlarının hazırlanması sahəsində əldə edilmiş nailiyyətlər təkcə Universitetdə deyil, Respublikamızın digər ali məktəblərinin iş təcrübəsindən də istifadə edilməkdədir.

Bakı Dövlət Universitetinin elmi potensialını duyan inkişaf etmiş ölkələrin qabaqcıl universitetləri, o cümlədən ABŞ-ın Indiana, Italiyanın Genuya, Yaponiyanın Yokohama universitetləri universitetimizlə beynəlxalq proqramlar və müştərək elmi axtarışlar aparmaga başlamışlar. İlk mərhələdə işlərin ümumi dəyəri 1 milyon ABŞ dollarından çoxdur.

Xalqımız müstəqillik əldə etdikdən sonra BDU-nun beynəlxalq nüfuzu artmış, dünya dövlətləri və xalqları ilə əlaqələri genişlənmişdir. Ölkəmizi ziyarətə gələn bir çox dövlət rəhbərləri, siyasət və mədəniyyət xadimlərinin Universitetin fəxri doktoru adına layiq görülməsi onun beynəlxalq aləmdə tanınmasına əhəmiyyətli təsir göstərmişdir.

Bakı Dövlət Universitetinin fəxri doktoru adını şərəflə daşıyan Süleyman Dəmirəl, Tansu Çillər, Məsud Yılmaz, İslam Kərimov, Saparmurad Niyazov, Eduard Şevardnadze, Frederiko Mayor, Petrc Luçinski və başqaları kimi tarixi şəxsiyyətlər, Lütfizadə, Iren Məlikova, Tadeuş Svyatoxovski, Cavad Heyət, Əhməd Şimide,

Xəlil Cin kimi görkəmli alimlər onun şöhrətinin bütün dünyaya yayılmasında yaxından iştirak edirlər.

Bakı Dövlət Universitetinin on minlərlə məzunları içərisində dünya şöhrətli mütəxəssislər az deyil. Lakin böyük məsuliyyət hissi ilə demək olar ki, onun ən böyük məzunu, dünya şöhrətli siyasətci mərhum Heydər Əliyevdir. Bütün universitetin çoxminli kollektivi öz dahi məzunu Heydər Əliyevlə fəxr etdiyi kimi Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə bildirmişdir: «Mən cox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam.»

**Bakı Dövlət Universitetinin nəzdində 16 fakültə fəaliyyət göstərir:**

1. **İlahiyyat fakültəsi**. BDU-nun İlahiyyat fakültəsi 1992/93-cü tədris ilində yaradılmışdır və ilk tələbələrin 50 nəfəri Azərbaycan Respublikasının, 10 nəfəri isə Türkiyənin nümayəndələri idi.

İlahiyyat fakültəsinin dekanı, Ərəb filologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, İraq Elmlər Akademiyasının müxbir üzvü, Misir Ərəb Dili Akademyasnın müxbir üzvü və İslam Konfransı Təşkilatı Fiqh Akademiyasının həqiqi üzvü, professor Məmmədəliyev Vasim Məmmədəli oğludur.

2. **Sosial Elmlər və psixologiya fakültəsi**. 1990-cı ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin tərkibində ilk dəfə olaraq sosiologiya, tarix-psixologiya, tarix-sosial psixologiya, tarix-etnopsixologiya ixtisaslarına tələbə qəbul edilmişdir.

1991-ci ildə həmin ixtisaslar bazasında yeni fakültə – sosial elmlər və psixologiya fakültəsi yaranmışdır. Fakültənin dekanı dosent Fazil Vahidovdur.

3. **Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq fakültəsi**. Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi öz fəaliyyətini 1991-ci ildən başlamışdır. Fakültənin yaradılmasında əsas məqsəd müstəqillik əldə etmiş respublikamızı lazımi səviyyədə təmsil edə bilən ixtisaslı kadrların hazırlanmasıdır. Fakültənin dekanı dosent Sədiyar Zeynalovdur.

4. **Hüquq fakültəsi.** 1927-28-ci tədris ilində Universitetin şərqşünaslıq fakültəsinin nəzdində hüquq şöbəsi fəaliyyətə başladı. 1928-ci ilin sonlarından bu şöbə müstəqil fakültəyə çevrildi. Hüquq fakültəsi Azərbaycanın iqtisadi, təsərrüfat, sosial, siyasi və mədəni həyatında böyük rol oynamışdır. Fakültənin dekanı professor əvəzi S.Kəmalə Niyaz qızıdır.

5. **Filologiya fakültəsi.** Filologiya fakültəsi 1919-cu ildə yaradılmışdır. Fakültə yüksək ixtisaslı və təcrübəli mütəxəssislərin hazırlanmasında, Azərbaycanda elmin və mədəniyyətin inkişaf etməsində böyük rol oynamışdır. Fakültənin dekanı filologiya elmləri doktoru, professor Qara Namazovdur.

6. **Şərqşünaslıq fakültəsi.** Şərqşünaslıq fakültəsinin əsası 1922-ci ildə qoyulmuşdur. Uzunmüddətli təşkilati dəyişikliklərdən sonra fakültə bir daha 1957-ci ildə açıldı. Fakültənin dekanı dosent Elxan Əzizovdur.

7. **Jurnalistika fakültəsi.** Fakültənin əsası 1928-ci ildə qoyulmuşdur. 1945-ci ildə filologiya fakültəsində jurnalistika şöbəsi açılıb və müstəqil jurnalistika kafedrası təşkil olunub. Ona H.Şahgəldiyev başçılıq edib. 1969-cu ildə həmin şöbə müstəqil fakültəyə çevrilib. İlk dəfə fakültəyə professor Nurəddin Babayev rəhbərlik etmişdir. Hazırda fakültənin dekanı dos. Yalçın Əlizadədir.

8. **Kitabxanaçılıq və informasiya fakültəsi.** Kitabxanaçılıq şöbəsi 1947-1948-ci tədris ilində BDU-nun filologiya fakültəsinin nəzdində yaradılmışdır. 1962-ci ildən kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilmişdir. Fakültənin ilk dekanı 25 il həmin vəzifədə çalışmış Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Abuzər Xələfov olmuşdur. 1970-80-ci illərdə prof. Z.H.Əliyev, 1994-cü ildən fakültəyə dosent Xəlil İsmayılov rəhbərlik edir.

9. **Tarix fakültəsi.** Tarix fakültəsi Bakı Dövlət Universitetinin yaşıdıdır. 1919-cu ildə tarix-filologiya fakültəsi adı ilə fəaliyyətə başlamışdır. 1934-cü ildən müstəqil fakültədir. Tarix fakültəsinin dekanı Əməkdar elm xadimi, professor Yaqub Mahmudovdur. O, Azərbaycan Respublikasının Şöhrət ordeni və Yusif Məmmədəliyev mükafatı laureatı medalı ilə təltif edilmişdir.

10. **Geologiya fakültəsi**. Geologiya fakültəsi 1943-cü ildə yaradılmışdır. 1991-ci ildən müstəqil fakültə kimi fəaliyyət göstərir. Fakültənin dekanı dosent Adil Xasayevdir.

11. **Coğrafiya fakültəsi**. 1991-ci ildə geologiya-coğrafiya fakültəsi bazasında 2 fakültə, geologiya və coğrafiya fakültəsi təşkil olundu. 1999-cu ildə fakültə dekanı vəzifəsinə, professor M.A.Müseyibov seçilmişdir.

12. **Biologiya fakültəsi**. Biologiya fakültəsi 1934-cü ildən fəaliyyət göstərir. 1991-ci ildən fakültənin dekanı biologiya elmləri doktoru, professor Ağavəli İbrahimovdur.

13. **Kimya fakültəsi**. Kimya fakültəsi 1934-cü ildə ümumi kimya kafedrasının bazasında yaradılmışdır. Kimya fakültəsində elmin və tədrisin inkişafında Y.Məmmədəliyevin, Ə.Quliyevin, M.Nağıyevin, C.Zülfüqarlının, Ş.Məmmədovun, P.Rüstəmovun, S. Hüseynovun, C.Hüseynovun və başqalarının əvəzsiz xidmətləri olmuşdur.

Bu fakültəni bitirən görkəmli kimyaçılardan İ.Orucova, Ə.Quliyev, R.Rzayev, P.Rüstəmov və başqalarını göstərmək olar. Fakültənin dekanı dosent Eldar Əhmədovdur.

14. **Fizika fakültəsi**. 1919-cu ildə fizika-riaziyyat fakültəsi yaradılmışdır. 1958-ci ildən fakültə müstəqil fəaliyyətə başlamışdır. Fakültənin dekanı fizika-riyaziyyat elmləri doktoru, professor Rəsul Muradovdur.

15.**Tətbiqi riyaziyyat və kibernetika fakültəsi**. Tətbiqi riyaziyyat və kibernetika fakültəsi 1972-ci ildə yaradılmışdır. Fakültənin dekanı fizika-riyaziyyat elmləri doktoru, professor Rizvan Paşayevdir.

16. **Mexanika-riyaziyyat fakültəsi**. Universitetin ilk fakültələrindən biri fizika-riyaziyyat fakültəsi 1920-ci ildə yaradılmışdır. 1958-ci ildən isə mexanika-riyaziyyat fakültəsi kimi müstəqil fəaliyyət göstərir. Fakültəyə professor Qəmbər Namazov rəhbərlik edir.

17. **Xarici tələbələrlə iş üzrə dekanlıq**. Xarici ölkələr üçün mütəxəssis hazırlığına Bakı Dövlət Universitetində 1968-ci ildən Şimali Vyetnamdan olan aspirantların universitetə gəlişi ilə başlanmışdır. Bununla əlaqədar xarici tələbələrin təhsili üzrə fakültə-xarici tələbələrlə iş üzrə dekanlıq fəaliyyətə başlamışdır. Fakültənin dekanı Həzrət Ağabəylidir.

18. **Tətbiqi riyaziyyat elmi-tədqiqat institutu.** Bakı Dövlət Universitetində fəaliyyət göstərən Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu 1992-ci ildə yaradılmışdır. İnstitutun direktoru fizika-riyaziyyat elmləri doktoru F.Ə.Əliyevdir.

19. **İdman kafedrası.** 1934-cü ildən fəaliyyət göstərən Bədən tərbiyəsi və idman kafedrasında 23 müəllim, o cümlədən 2 elmlər namizədi, 2 dosent və 19 müəllim çalışır. Kafedra müdiri dosent Akif Atakişiyevdir.

**Hazırlayanlar:**
**Samirə Vəliyeva – Yaqut Quliyeva – Yeganə Hüseynova**